***Çağdaş Güney şeirinin tanınmış isimlərindən olan Məhəmmədrza Ləvayi 1970-ci ildə Qaradağ mahalının Xoca şəhərində dünyaya gəlib. Bir müddət Bakıda yaşayıb və "Alma" qəzetində çalışıb. Sonradan ABŞ-ın Çikaqo şəhərinə mühacirət edib. Şairin işıq üzü görən kitabları: "Gəlirəm mənə inan", "Sonra ürəyimi onlara verdim", "Dərinliyimdir dəniz", "Günəş səsindir batır", "Terror və azadlıq", "Gözlərin doğum günüm", "Arbatan", " Sus"...***

**İlham Qəhrəman**



Məhəmmədrza LƏVAYİ

## YAVAN TİKƏNİN ƏVVƏLİ SEVDANIN SONUDUR

HANI SƏNƏ VURULDUĞUM DƏHŞƏT
Bir gün məni öldürər bu sevda,
Gözlərim ovuclarına sıxılar bir gün,
axaram xatirələr astanasında.
Geri dön, sevgilim, geri dön
Gündüzlərim gündəliklərlə bükülür
Bu nə haldır heeey!
O qədər ayığam, yuxum tökülür!
Hanı həmən bu dilimlə vulkanları
Üfuqləri qandırdığım günlər?!
Hanı həmən bu dilimlə
xalqa ürək yandırdığım günlər?!
Hanı sənə vurulduğum dəhşət?!
Bir gün məni öldürər bu sevda,
Yanaqların cəhənnəm yağdırır üstümə,
Baxışların göyü leş salır ayaqlarıma.
Bəli düşünürəm -
Yoxsulluq sevgiyə günüdür!
Bəli düşünürəm -
Yavan tikənin əvvəli sevdanın sonudur!
Yox, heç də qayıtma
Sənin də haqqın var
İldırımda, yağmurda.
Sənin də haqqın var
Həyat adlı yalanlarda.
Mənə yetər bu suçlar,
Azərbaycan adlı bomba ilə oynamağım.
Qələmlə yaratdığım sevinclər, kədərlər,
Ayrılıq mahnısı ilə ulaşmağım
Və iştə,
Üzüm ağacıtək özümə dolaşmağım
Bir gün məni öldürər bu sevda.

## BU ADAM OĞLU SAXSILARA ŞEİR ƏKƏK DEYİRSƏN

Payız yavaş-yavaş ev qadını olur,
Açır pəncərəni üzümüzə.
Fəsillərini eyvana çıxarıbsan səhər yeməyinə,
Qartal qayğısıdır qaşların dağlara!
Əl atırsan yaxana, məmləkət calanır küçəyə!
Həmin məmləkətdə
Hər gün bir Məhəmməd Rza qoparıb sürgün edirlər məndən!
Yapışmır anamın dodağına məmləkət mənsiz
Atamın "Allahu Əkbər"ində kürtaj olan tarixin sancısı var
Bu adam oğlu saxsılara şeir əkək deyirsən,
Olmaz, bir az çox xalam evidir ayrılıq.
Saçlarına taxılıb qalır sorunlar, sorular
Hansı gözün tülküsüdür pəncərəndə günəş?!
Hansı köynəyin cırılan vaxtıdır bu soyuq səhər?!
Cümə axşamına dırmaşan mömünlərin beyni deyilmi bu meydan?!
Sənə çarpıb səkkiz milyard nəfər oldu sevgi,
Ölkə-ölkə paylaşır yalnızlığını yer kürəsi
Dodağından qonur bayraqlara milli qürur!
Ağaclar - sən ola bilməyən qadınlar,
Daşlar - şerində gəzməyən ərkəklər.
Yollar - insanın insandan qaçış yetənəyi!
Bir şeir yaz quş olsun sümüklərimiz
Təqvimlərdə çürüdüyümüz sərhədlərə hayıf !

## SEVGİ ƏSARƏTDİR BƏZƏN

Bir cüt yaşıl gözün arxasında qaldı fəlsəfəm,
Riyaziyyatdan öyrəndiyim yalnız sevginin boyudur,
bir metrə səksən santimetrə boyunda.
O günlər inqilab romantikası idi
yağmur altında sıçrayan qaşlarımız.
O qədər də canlı deyildir ışığım,
Bulud hopdu ətəyinə, söndüm
İndi sənsiz bir şeylər yazıb-oxuyuram
siyasi,
elmi,
fəlsəfi.
Xatirəmin önündə yenilir inadım,
Xatirələrimin dərisi soyulur,
və yataq odası islanmış kitabdır, oxunmur
Pəncərəmdəki cada1 cırır canımdakı karvanı
Cada cadı, cada cin
Sonra cayar cada.
Sonra dodaqlarını çarparam göyə, sonucu bəlli.
Yuxularımda tutuqlanan kişini
buraxaram əllərinin adasına
Yol yürüməz bilirəm yalandan ilandan yolunmaz yol
Ağaclar yırtıq təkər hələlik
Orman yürüyür, amma
Bir xəstə qanadın quşu salamdan qonur sağlığıma
Mən, amma, əlvidalardayam həmişə
Durnalar şəritinə sərilən baxışlar düşür ayaqlar altına
Sevgi uçurum, düşüş
Sevgi uşaq qorxunun mediyaya işəməsi
Sevgi əsarətdir bəzən
Ah, bu məmləkətin əsarəti sığmadı canıma bir tür
O səbəbdən qat-qat geydim bütün ölkələri
Xəzər köynəyim, Atlantik pencəyim...
Necə, nasıl anlamzsan məni!

## BƏDƏNİN İŞĞAL OLUNMUŞ XƏRİTƏMİZİN ÖZGÜR İRADƏSİ

Bədəninin dərə-təpəsi, gümbəzləri, Təbrizi,
Yanaqlarındakı almalıqlarda oynayan uşaqlar,
Kipriklərin küçə başında qara çarşablı qadınlar pıçıltısı,
Budların Ağ Dəniz balıqları
Məndə balıqçılar səbri hardaydı?
Göbək atarsan bu qəribə
Köynəyin səkkiz rixter zəlzələ
Səni o qədər şeh damlasına çevirər ki Atlantik
Nuhun gəmisi Qafqaz dağlarında sökülər!
Qoltuğundakı xal hansı demokratdır? Hansı zindanda?
Dodağın hansı şairdir? Hansı ölkədə?
Saçlarında neçə peyğəmbər, Yanaqlarındakı neçə tanrı vəhyə girişib?
Bu məhzun öpüş ölülərimizin hankısıdır, hansı məzarda?
Bədənin, işğal olunmuş xəritəmizin özgür iradəsi !

## TƏBƏSSÜMÜN ALLAHIMDIR, OĞLUM

1

Və gözyaşların Cəbrayılı tökür ovcuma,
Bu peyğəmbərlərin vəhy səhrasına
Həzin-həzin ağlarsan hər gecə yorğan altda...
Hardasa yağmur utanıb yerə girər!
"Tom and cery" silinər televiziyadan
Hər gecə Əhməd Kayanın mahnılarını
Bağrına basıb yatarsan.
Və hər səhər Fars kanalları dişləyər yuxularını
Gündə min dəfə ata məni atıb tutarsan
Aramızda mən boyda sərhəd varmış, oğlum, bağışla
Nə sən bu sərhədi keçə bildin, nə mən.
Səni bayraq yondum Təbrizə bir axşam
Qaldır türk bayrağını, qaldır!
Təbəssümünü yay şəhərə
Təbəssümünə tutular düşmən, yandırarsın,
Və dostlar təbəssümünü içib keflənərlər
Təbəssümün Allahımdır, oğlum!

2

Təbəssümün
Bıçaq yarasıdır üzümdə,
Ya türmədə yediyim şallaqdır!
Təbəssümün sökər şeirimi, sökər.
Aç sərhədlərini ay təbrizli təbəssüm,
Ək qucağına Bakını,
Ya da İstanbula əmr et məni!
Onsuz da, dünya məhkəmədir
Və təbəssümün sonuncu müdafiəm!

3

Bu qovğa nədir?!
Təbəssümünü şəhid gətirirlər şəhərə,
Rahat yat, ay qəhrəman təbəssüm...

## PAYIZ

Sonunda bu payız gözlərin deyilmi Aysuda?
Saralır baxışlarının Təbrizi, Ərdəbili,
Ağaclardan vətən tökülür, sevgi tökülür, mən tökülürəm,
Başmaqlarımdan başıma doğru düşür yüksəlir...
Payız qulaqlarımdan içimə düşür, gözlərimdən dışarı sıçrayır,
Payız məni payız edib gedir,
Gözlərin mənəm artıq baxsana...

## QUŞ

Bəzən bir quşun qanadına yükləyirəm dənizi
Dəniz uçur meşədə, şəhərdə,
Dəniz qızının, amma xəbəri yoxdur
Balıqlar, amma dənizi dəniz sanırlar
Balıqlar dənizin quş olduğunu bilmirlər !.

## QUYU

Mən gördüm,
O yetim uşağın topunu alıb quyuya atdılar
Quyunun ürəyi dolub daşdı
Quyu kiməsəni boğmadı, amma topu geri qaytardı!..

## EHTİMALLAR

Qaşların atar ehtimallara şairi,
Bir fincan qəhvədən çıxararsan canımı.
Alarsan boğazımdan dərdimi taxarsan boğazına
Üç yüz altmış beş ehtimal var ortada,
Birinə minib gedərsən.
Mən keçdiyin yollardan qorxmadım əsla,
Mən yolları sənə keçirdiyi xəritələrdə bir
alma ağacıyam,
Kölgəmdə Həvva, Adəm, Şeytan,
İçimdə bir tanrı
Başlanğıc fəlsəfəmi dərib yesən ehtimal,
Dərib atsan ehtimal...